**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ**

| | |
|---|---|
| **Aktın növü:** | *Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı* |
| **Qəbul edildiyi tarix:** | *14.12.2020* |
| **Qeydiyyat nömrəsi:** | *69- 06/S* |
| **Adı:** | *Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında* |
| **Rəsmi dərc edildiyi mənbə:** | *"Şərq qapısı" qəzeti № 218* |
| **Qüvvəyə minmə tarixi:** | *15.12.2020* |
| **Vahid hüquqi təsnifatı üzrə indeks kodu:** | *180.010.000* |
| **Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi:** | *32202012140069* |
| **Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix:** | *16.12.2020* |

## Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

## S Ə R Ə N C A M I

Muxtar respublikada innovasiyayönümlü iqtisadiyyata keçid, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan xidmət sahələrinin genişləndirilməsi, elmi tədqiqatların aparılması və nəticələrinin sənayedə tətbiqi ali təhsil müəssisələrində müasir komplekslərin yaradılmasını zərurətə çevirir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq elmlə istehsalat arasında qarşılıqlı əlaqənin qurulması, istehsalatın yeni elmi ideyalar əsasında inkişafı, elmi tədqiqatlara olan xərclərin səmərəliliyinin yüksəldilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Dövlət Universitetində 2 hektar ərazini əhatə edən, müxtəlif elm sahələri üzrə təcrübə-konstruktor, elmi-tədqiqat və startap layihələrinin mühüm elmi nəticələrinin sənaye və xidmət sahələrində tətbiqini həyata keçirən sosial, mədəni, mühəndis-kommunikasiya təminatı olan obyektlər kompleksindən ibarət Texnologiyalar Parkı (Texnopark) yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi Texnologiyalar Parkının texniki xüsusiyyətlərinə aid tələbləri nəzərə almaqla mühəndis-kommunikasiya təchizatını təmin etsin.

3. Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Naxçıvan Dövlət Universitetinin təklifləri əsasında Texnologiyalar Parkının layihəsini hazırlayıb təqdim etsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **VASİF TALIBOV**

Naxçıvan şəhəri, 14 dekabr 2020-ci il
№ 69-06/S